UOT 94

HÜSEYN HÜSEYNLİ
Bakı Dövlət Universiteti, Avropa və Amerika ölkələrinin
yeni və müasir tarixi kafedrasının dosenti,
tarix üzrə fəlsəfə doktoru
ORCİD İD: 0000-0001-7954-0381
huseyn.huseynli@bsu.edu.az

TÜRKİYƏNİN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ RUSİYA AMİLİ (2013-2016-CI İLLƏR)

DOI: https://doi.org/10.36719/2708-065X/109/79-84

Məqalədə 2013-2016-cı illərdə Türkiyənin Cənubi Qafqaz siyasətində Rusiya ilə münasibətlər, xüsusilə siyasi və diplomatik proseslər araşdırılır. Burada 2014-cü il ərzində baş verən hadisələr, o cümlədən Dağlıq Qarabağda baş verən toqquşmalar, Rusiya və Türkiyə əlaqələrində Gürcüstanın mövqeyi, eləcə də Türkiyənin Cənubi Qafqazda "yeni coğrafiya" yanaşması, Rusiya ilə münasibətlərdəki gərginlik, həmçinin Ermənistanın Avrasiya İqtisadi Birliyinə qoşulması və bunun Türkiyənin siyasətinə təsiri geniş təhlil edilib. Məqalədə həmçinin, Türkiyə və Gürcüstan arasındakı əlaqələr, xüsusən də regional təhlükəsizlik və iqtisadi əməkdaşlıq məsələləri işıqlandırılır. Bütün bu amillər, Türkiyənin Cənubi Qafqazda yeni bir siyasi xətt formalaşdırmasına və Rusiya ilə əlaqələrini balanslaşdırmasına gətirib çıxarır.

Açar sözlər: Türkiyə, Rusiya, Cənubi Qafqaz, Azərbaycan, Gürcüstan, Ermənistan.

Giriş. Türkiyənin Cənubi Qafqaz siyasətinə təsir göstərən əsas amillərdən biri Rusiya ilə qarşılıqlı münasibətlərdir. Moskvanın 2013-cü ildə Cənubi Qafqaz ölkələrinə yönəlik məqsədi bu ölkələri onun rəhbərliyindəki Gömrük İttifaqına qoşulmağa razı salmaq idi. Xüsusilə, Azərbaycanın Gömrük İttifaqına qoşulması, Rusiya üçün bu layihənin uğuru baxımından böyük əhəmiyyət kəsb edirdi. Bu kontekstdə, 15 avqust tarixində Putinin yeddi illik fasilədən sonra Bakıya etdiyi işgüzar səfər olduqca maraqlıdır. Putinin Bakı səfəri zamanı Rusiya və Azərbaycan arasında enerji, nəqliyyat və aviasiya kimi sahələrdə bir sıra mühüm müqavilələr imzalandı. Lakin Prezident İlham Əliyevin Rusiyanın təklif etdiyi Gömrük İttifaqına qoşulma məsələsində kifayət qədər ehtiyatlı davrandı. Belə ki, noyabr ayında Vilnüsdə keçirilən Şərq Tərəfdaşlığı zirvəsində Azərbaycan və Avropa İttifaqı arasında imzalanmış viza rejiminin asanlaşdırılmasına dair saziş Azərbaycanın Rusiya və Aİ arasında balans siyasəti apardığını göstərirdi. Bu siyasət, həm Aİ, həm də Rusiya ilə mühüm siyasi və iqtisadi əlaqələri olan Türkiyə üçün də uyğun idi. Bununla belə, Azərbaycanın bu iki iqtisadi alternativ arasında edəcəyi yekun seçimin orta və uzunmüddətli dövrdə Türkiyə-Azərbaycan münasibətlərinə də əhəmiyyətli təsir göstərəcəyini proqnozlaşdırmaq olardı.

Əsas hissə. Baş nazir R.T.Ərdoğan 2014-cü ilin aprel ayında Bakıya işgüzar səfər edərək Prezident İlham Əliyevlə görüşdü. Görüş zamanı Ərdoğan, mart ayında keçirilmiş bələdiyyə seçkilərindən sonra ilk xarici səfərini Azərbaycana etdiyinə diqqət çəkərək, bunun Türkiyə siyasətçiləri üçün artıq ənənəyə çevrildiyini vurğuladı. Belə ki, 10 avqust tarixində keçirilmiş prezident seçkilərində qalib gəldikdən sonra Ərdoğan sentyabr ayında Şimali Kipr Türk Cümhuriyyətinə (ŞKTC) səfərindən dərhal sonra Azərbaycana gələrək Türkiyənin bu ölkə ilə münasibətlərinə verdiyi əhəmiyyəti nümayiş etdirdi.

2014-cü ilin yanvar ayından etibarən Azərbaycan-Ermənistan təmas xəttində kiçikmiqyaslı toqquşmalar baş verdi. İyulun sonunda isə iki ölkə arasındakı gərginlik daha da artdı. 31 iyul - 5 avqust tarixlərində intensivləşən silahlı qarşıdurmalar nəticəsində 14 Azərbaycan əsgəri şəhid oldu. Ermənistan tərəfindən isə 50 hərbçi həlak oldu. Azərbaycan 12 noyabr tarixində Ermənistana məxsus hərbi helikopteri vurdu. Bu hadisələr Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində beynəlxalq səyləri də çətinləşdirdi. Rusiya, Fransa və ABŞ-ın vasitəçiliyi ilə İlham Əliyev və Serj Sarkisyan arasında il ərzində bir neçə görüş keçirilməsinə baxmayaraq, bu danışıqlardan konkret nəticə əldə olunmadı. Bu müddətdə Türkiyə Azərbaycana açıq şəkildə dəstək verdi. Həm Ərdoğan, həm də Davudoğlu baş verən

toqquşmalardan sonra Azərbaycan xalqına başsağlığı verdi. Bundan başqa, 8 noyabr tarixində Azərbaycanın Müdafiə Nazirliyinin dəvəti ilə Bakıya səfər edən Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Qüvvələr Komandanı General-mayor Zəkai Aksakallı cəbhə xəttindəki hərbi mövqeləri ziyarət etdi [12]. Bu dəstək Türkiyə-Azərbaycan münasibətlərinin strateji əhəmiyyətini bir daha göstərdi.

2008-ci ildə baş verən Rusiya-Gürcüstan müharibəsi ərəfəsində və sonrasında Türkiyənin fəal siyasi-diplomatik fəaliyyəti regionda sabitliyi təmin etmək baxımından vacib idi. Türkiyənin Gürcüstanla Rusiya arasında yaranan problemin nizamlanması üçün mühüm addımlar atması, eləcə də "Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması" təşəbbüsünü irəli sürməsi Türkiyənin Cənubi Qafqaz siyasətini gücləndirdi [1]. 2012-ci ildən bəri Türkiyə, Azərbaycan və Gürcüstan arasında müntəzəm görüşlər keçirilməyə başlandı. Bu çərçivədə üç ölkənin xarici işlər nazirləri fevral ayında Gəncədə, dekabr ayında isə Qarsda bir araya gəldilər. Avqust ayında isə bu dəfə müdafiə nazirləri Naxçıvanda görüşdülər. Bundan əlavə, Prezident Abdullah Gülün may ayında Gürcüstana etdiyi səfərdən sonra üç ölkənin dövlət başçıları arasında ilk zirvə toplantısı keçirildi. Bu üçtərəfli görüşlər həmin tarixdən etibarən hər il müntəzəm olaraq təşkil olundu. Göründüyü kimi, Ankara, Bakı və Tbilisi hökumətləri arasında xüsusilə son dövrdə olduqca səmərəli regional əməkdaşlıq mexanizmi quruldu. Üç ölkəni birləşdirən enerji və nəqliyyat layihələri ilə möhkəmləndirilən bu mexanizmin əsas məqsədlərindən biri də bölgədəki münaqişələrin sülh yolu ilə həllini tapması idi. Belə ki, may ayında keçirilən üçtərəfli zirvə toplantısında Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya münaqişələrinin həllində suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət göstərilməsinin vacibliyi vurğulanaraq, bu prinsiplərin həmçinin Ukraynada baş verən böhranın həllində də əhəmiyyətli olduğu diqqətə çatdırıldı. Türkiyə və Gürcüstan arasındakı diplomatik əlaqələr Azərbaycanın da daxil olduğu üçtərəfli regional platformalardan əlavə ikitərəfli istiqamətdə də inkişaf edirdi. Məsələn, yanvar ayında Gürcüstan prezidenti Marqvelaşvili prezident Gülün dəvəti ilə Ankaraya rəsmi səfər etdi, sentyabr ayında İstanbulda keçirilən Dünya İqtisadi Forumu zirvəsi zamanı isə bu dəfə prezident Ərdoğanla görüşdü [2, s.8-9]. Həmçinin iki ölkə arasında Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının yaradılması haqqında razılıq əldə olundu. Türkiyə, Azərbaycan və Gürcüstan arasında qurulan bu cür mexanizmlərə Ermənistanın qoşulması mümkün görünmürdü. Bu məsələdə xarici işlər naziri Mövlud Çavuşoğlunun son olaraq Qarsda keçirilən üçtərəfli xarici işlər nazirləri toplantısında söylədikləri olduqca önəmlidir: *"Biz Ermənistanın da Cənubi Qafqaz ailəsinə qatılmasını istəyirik. Amma əvvəlcə qonşuları ilə olan problemlərini səmimi şəkildə həll etmək üçün addımlar atmalıdır. Biz Qarabağ probleminin, yəni Azərbaycanın işğal olunmuş torpaqları ilə bağlı problemlərin bir an əvvəl həllini istəyirik. Həll üçün Ermənistanın qonşularının sərhəd və ərazi bütövlüyünə hörmət etməyi öyrənməsi lazımdır"* [13].

Göründüyü kimi, Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsi davam etdiyi müddətcə Türkiyə-Ermənistan münasibətlərinin normallaşması və ya Ermənistanın regional enerji və nəqliyyat layihələrində iştirak etməsi mümkün deyildi. Bununla əlaqədar olaraq, bölgədə daha da təcrid olunan İrəvan rəhbərliyinin 2013-cü ilin sonunda Aİ ilə assosiasiya sazişi imzalamaq əvəzinə, Rusiyanın təşəbbüsü ilə yaradılan Avrasiya İqtisadi Birliyinə (AİB) qoşulmaq qərarı alması təəccüblü deyildi. Belə ki, 11 oktyabr tarixində Belarusiyanın paytaxtı Minskdə keçirilən zirvə toplantısında Ermənistanın AİB üzvlüyü ilə bağlı yekun saziş imzalandı. Bu Ermənistanı siyasi və iqtisadi baxımdan tamamilə Rusiyadan asılı vəziyyətə saldı.

Türkiyə-Ermənistan münasibətlərinin qarşısında duran digər mühüm problem "soyqırım" iddiaları idi, bu da vəziyyəti çıxılmaz edirdi. Bu baxımdan baş nazir Ərdoğan 23 aprel 2014-cü ildə 1915-ci il hadisələri ilə bağlı erməni xalqına olduqca mənalı mesaj verdi: *"Qədim və unikal bir coğrafiyanın oxşar adət-ənənələrə malik xalqlarının keçmişlərini yetkinliklə müzakirə edə biləcəklərinə, itkilərini özlərinə layiq yollarla və birlikdə anacaqlarına ümid və inamla, 20-ci əsrin əvvəllərindəki şəraitdə həyatlarını itirən ermənilərin rahatlıq içində yatmalarını arzulayır, onların nəvələrinə başsağlığımızı bildiririk. Eyni dövrdə oxşar şəraitdə həyatını itirən, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün Osmanlı vətəndaşlarını da rəhmətlə və hörmətlə anırıq"* [3, s.374-375].

Ünvanlanan məktuba baxmayaraq, Ermənistan Prezidenti Sarkisyanın bu mesajı kifayət qədər yetərli hesab etmədi və türk həmkarını 24 aprel 2015-ci ildə İrəvanda keçiriləcək "soyqırımın yüzilliyi anma mərasimlərinə" dəvət etməsi iki ölkə arasında gərginliyi artırdı. 2015-ci ildə Avrasiyada yerləşən

ölkələr mühüm bir hadisəyə şahid oldular. 2014-cü ilin may ayında Rusiya, Qazaxıstan və Belarus tərəfindən imzalanmış Avrasiya İqtisadi Birliyi, 2014-cü ilin oktyabrında Ermənistanın, dekabrında isə Qırğızıstanın qoşulması ilə 1 yanvar 2015-ci il tarixindən etibarən qüvvəyə mindi. Avropa İttifaqından ilham alaraq ortaq bazar yaratmaq istəyən bu birliyə Qərbdən sərt tənqidlər gəldi. Bu kontekstdə ən çox rast gəlinən tənqid Rusiyanın SSRİ-ni yenidən qurmaq istəyi ilə bağlı fikirlər idi. Türkiyənin Avrasiya İqtisadi İttifaqına münasibətdə ilk reaksiyası, Qərbin əksinə, kifayət qədər nikbin idi. Türkiyənin gələcəkdə bu birliyə qoşulması və ya ən azından müşahidəçi statusu alması müzakirə olunurdu. Hətta bu mövzuda Putin Türkiyə ilə bağlı aşağıdakı fikirləri səsləndirmişdir: *"Avrasiya İqtisadi Biriliyi ilə əməkdaşlıq Türkiyə üçün ticarət və iqtisadi sahələrdə çox böyük imkanlar yaradacaq"* [4].

İki ölkə arasında siyasi məsələlərdə fərqli maraqların olmasına baxmayaraq sarsılmayan iqtisadi və ticarət əlaqələri sürətlə davam edirdi. Lakin 24 noyabr 2015-ci ildə münasibətlər ciddi şəkildə zədələndi. Həmin gün saat 09:20 radələrində Hatayın Yayladağı bölgəsində Türk hava məkanını pozan bir Rusiya təyyarəsi beş dəqiqə ərzində 10 dəfə xəbərdarlıq edilməsinə baxmayaraq hava məkanını pozmağa davam etdiyi üçün saat 09:24-də bölgədə hava patrul xidmətini həyata keçirən iki Türkiyə F-16 qırıcısı tərəfindən vuruldu. Bu vəziyyətin ikili münasibətlərə ilk təsiri 25 dekabrda keçirilməsi planlaşdırılan və Türkiyə-Rusiya Yüksək Səviyyəli Əməkdaşlıq Şurasının alt qurumu olan Ortaq Strateji Planlaşdırma Qrupu toplantısına qatılmaq üçün Türkiyəyə gəlməsi əvvəlcədən nəzərdə tutulan Rusiya xarici işlər naziri Sergey Lavrovun səfərini ləğv etməsi oldu. Ardınca isə Rusiyadan bu hadisənin çox ciddi nəticələrə səbəb olacağı barədə bəyanatlar səsləndirildi. Bu çərçivədə, təyyarənin vurulmasından sonra ilk 24 saat ərzində Lavrov rus vətəndaşlarına Türkiyəyə səfər etməmək çağırışı etdi, Aralıq dənizindəki Rusiya donanması isə təyyarənin vurulduğu şimal-qərbi Suriya sahillərinə hava hücumundan müdafiə sistemi S-300 raketləri daşıyan hərbi gəmilər göndərdi. Bundan başqa, Rusiya Türkiyə sərhədlərindəki hərbi əməliyyatların daha da intensivləşəcəyini bildirdi. Eyni zamanda, Rusiya Parlamentinin üzvləri 1915-ci il hadisələrinin "erməni soyqırımı" olduğunu inkar edənlərin cəzalandırılmasını nəzərdə tutan qanun layihəsini Dövlət Dumasına təqdim etdi. Rusiyanın dövlət bazar tənzimləyicisi "Rosselxoznadzor" isə 1 dekabrdan etibarən Türkiyədən ağ ət məhsullarının idxalını dayandıracağını açıqladı [5].

İki qonşu ölkə arasında münasibətlərin pozulması Türkiyənin C.Qafqaz ölkələri ilə əlaqələrinə də təsirsiz ötüşməyə bilməzdi. Lakin Türkiyənin bu ölkələrə münasibətdə yeni siyasi xətt formalaşdırması qaçınılmaz idi. Bu baxımdan Ə.Davudoğlunun səsləndirdiyi fikirlər, Türkiyənin "yeni coğrafiya" anlayışını aydın şəkildə ortaya qoyurdu: "*Türkiyənin yerləşdiyi coğrafi mövqe digər mərkəzi ölkələrin malik olmadığı xüsusiyyətlərə malikdir. Məsələn, Almaniya mərkəzi ölkədir, lakin Avropada bir mərkəzi ölkə kimi Asiya və Afrikadan uzaqdır. İran Asiyada bir mərkəzi ölkədir, lakin Avropa və Afrikadan uzaqdır. Əhatəli bir baxış bucağından görmək mümkündür ki, Türkiyə həm Asiya, həm Avropa ölkəsidir və eyni zamanda Şərqi Aralıq dənizi vasitəsilə Afrikaya da çox yaxındır. Belə unikal xüsusiyyətlərə malik olan ölkə əsla passiv xarici siyasət apara bilməz. Türkiyə nə sadəcə iki nöqtəni birləşdirən bir körpü, nə irəlidə yerləşən bir uc nöqtəsi, nə də İslam dünyası ilə Qərb arasında sadə bir ölkədir"* [6, s.78].

Rusiyanın bütün sanksiyalarına baxmayaraq, Türkiyə üçün mərkəzi ölkə anlayışını yerinə yetirmək baxımından vacib bölgələrdən biri də məhz Cənubi Qafqaz regionu idi. Türkiyə Cənubi Qafqazı Asiyanın dərinliklərinə çatmaq üçün açar bölgə kimi qəbul etdiyi yeni strategiyasını Gürcüstan və Azərbaycan üzərində qursa da, Ermənistanla yaxınlaşma fikrini də tamamilə istisna etmirdi. Türkiyə və Gürcüstan arasındakı münasibətlərdə də Rusiya faktoru ön planda olduğu üçün planlaşdırılan layihələr əsasən Türkiyə-Azərbaycan-Gürcüstan çərçivəsində həyata keçirilirdi. Bu prosesdə Türkiyə, Rusiya ilə qarşı-qarşıya qalmaq bahasına Ukrayna müharibəsində olduğu kimi Gürcüstanın ərazi bütövlüyünü müdafiə edirdi. Gürcüstan üçün də Türkiyə ilə əlaqələrin inkişafı olduqca həyati xarakter daşıyırdı. Bu vəziyyət Gürcüstan Müdafiə Nazirinin müavini Anna Dolidze tərəfindən belə ifadə edilirdi: *"Türkiyə və Gürcüstan arasındakı mövcud münasibətlər çox yaxındır. Belə bir dəstəkçimiz olduğu üçün çox xoşbəxtik. İqtisadi, hərbi, siyasi və mədəni əlaqələrimiz çox genişdir. Ümid edirik ki, gələcəkdə münasibətlərimiz daha yüksək səviyyəyə çatacaq"* [7].

Türkiyə və Rusiya arasında gərginliyin davam etdiyi vaxtda ruslar tərəfindən ermənilərdən siyasi alət kimi istifadə prosesinə start verildi. 1915-ci il hadisələrini "soyqırım" kimi tanımaq məqsədilə

Dumaya qanun layihəsi təqdim olunsa da, bütün bunlara etiraz edən erməni ziyalılarını da var idi. Etirazını dilə gətirən bu ziyalılardan biri, İrəvanda fəaliyyət göstərən Qloballaşma və Regional Əməkdaşlıq Analitik Mərkəzinin direktoru Stepan Qriqoryan idi. O, 1915-ci il hadisələrinin Rusiya tərəfindən alət edilməsinə qarşı etirazını belə ifadə edirdi: *"Ermənilər, Türkiyənin Rusiya ilə münasibətlərinin pisləşməsini istəmirlər. Onlar Türkiyədə sabitliyin hökm sürməsini arzulayırlar. Yalnız ağılsız insanlar Türkiyədə sabitliyin pozulmasına sevinər"* [8].

Türkiyədə də Ermənistanla münasibətlərin qurulması istiqamətində hətta hökumət səviyyəsində çağırışlar edilməkdə idi. Buna misal olaraq, Türkiyə Respublikasının Baş naziri Əhməd Davudoğlu 64-cü hökumət proqramının təqdimatı zamanı etdiyi çıxışında Ermənistanla münasibətlərin normallaşması istiqamətində addımların atılmağa davam edəcəyini vurğuladı və Cənubi Qafqazda sülh və sabitliyin təmin edilməsinin Türkiyə üçün önəmli missiya olduğunu qeyd etdi. Türkiyənin Ermənistana yönəlik xarici siyasətində bu cür irəliləyişlər müşahidə edildiyi dövrdə, Türkiyə-Rusiya arasında yaranan böhran iki ölkə münasibətlərini daha çətin vəziyyətə salacaq fərqli bir hadisə ilə nəticələndi. Rusiyanın Ermənistan-Türkiyə sərhədinə 58-ci Korpusun elit bölmələrindən ibarət 7 min nəfərlik hərbi qüvvə yerləşdirəcəyi məlumatı mətbuata sızdırıldı. Həmçinin, bu birliyin raket qurğuları və tanklarla təchiz ediləcəyi, burada qurulacaq qərargahın və Suriyada yerləşdirilən S-400 raketlərinin olduğu Rusiya hərbi bazasının xüsusi rabitə kanalları vasitəsilə birbaşa əlaqədə olacağı bildirildi. Bu çərçivədə hər iki mərkəzin koordinasiyalı radar fəaliyyəti ilə Türkiyə hava məkanının 85 faizini nəzarət altına alacağı qeyd edilirdi [9, s.336]. Təyyarə böhranının ardınca münasibətlərin normallaşması istiqamətində atılan ilk addım Prezident R.T.Ərdoğan və Baş nazir B.Yıldırımın 12 iyun 2016-cı il tarixində Rusiya "Milli Günü" münasibətilə verdikləri təbrik mesajları oldu. Prezident Ərdoğan mesajında, "Türk xalqı adından bütün rus vətəndaşlarının "Rusiya Günü"nü təbrik edir və yaxın zamanda Rusiya ilə Türkiyə arasındakı münasibətlərin layiq olduğu səviyyəyə yüksəlməsini arzulayıram" - deyə qeyd edirdi. B.Yıldırım isə "Yaxın zamanda iki ölkə arasında əməkdaşlıq və münasibətlərin hər iki xalqın ortaq maraqları üçün zəruri səviyyəyə çatmasını ümid edir və rus vətəndaşlarına rifah arzulayıram" ifadəsini işlətdi. Bu jest də cavabsız qalmadı. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin mətbuat katibi Dmitri Peskov mətbuat konfransı keçirərək münasibətlərin inkişafı ilə bağlı belə bir açıqlama verdi: *"Münasibətlərimizin normallaşmasını, düzgün və qarşılıqlı faydalı əməkdaşlığa çevrilməsini arzulayırıq və istəyirik".* Qarşılıqlı açıqlamalardan bir ay sonra, 15 iyul 2016-cı ildə Türkiyədə baş verən uğursuz çevriliş cəhdi Türkiyə-Rusiya münasibətlərinin normallaşması prosesində mühüm rol oynadı. Fətullahçı Terror Təşkilatı (FETÖ) tərəfindən həyata keçirilən çevriliş cəhdinin uğursuz olması və ardınca Türkiyənin Əmək və Sosial Müdafiə naziri Süleyman Soylunun "Çevrilişin arxasında Amerika Birləşmiş Ştatları dayanır" açıqlaması Türkiyə-ABŞ münasibətlərində yaranmış gərginliyi daha da artırdı [10].

Nəticə.Türkiyənin Qərblə münasibətlərinin gərginləşməsi Rusiyanın bu prosesə birbaşa qoşulması üçün əlverişli şərait yaratdı və iki ölkə arasında dialoq kanallarının daha sürətli inkişafına şərait yaratdı. Prezident Ərdoğan 15 iyul hadisələrindən sonra ilk xarici səfərini 9 avqust 2016-cı ildə Rusiyaya etdi və Konstantin Sarayında Rusiya Prezidenti Putinlə iki saatlıq görüş keçirdi. Görüşdən sonra Putin, *"Bu gün Türkiyədə daxili siyasətdə çətin vəziyyət yaşanmasına baxmayaraq buraya gəlməyiniz, hər iki tərəfin ikitərəfli münasibətlərin normallaşmasını istəməyinin göstəricisidir. Bu da hər iki ölkə xalqlarının mənafeyinə uyğun olacaqdır"* deyə vurğuladı [11, s.380].

Türkiyə və Rusiya arasındakı münasibətlərin öz əvvəlki statusuna qayıtması, şübhəsiz ki, Türkiyənin Cənubi Qafqaz siyasətinə müsbət təsir göstərdi. 2016-cı ildə Azərbaycan təbii qazının Türkiyə vasitəsilə Avropaya nəql edəcək TANAP layihəsi ilə bağlı mühüm addımlar atıldı. Bundan başqa, üçtərəfli görüşlər çərçivəsində regional məsələlərin müzakirə edilməsi məqsədilə Türkiyə-Azərbaycan-Rusiya üçtərəfli görüş mexanizminin yaradılması barədə qərar qəbul edildi.

ƏDƏBİYYAT

1. Hüseyn Hüseynli. Fərhad Aydınlı. Türkiyə-Gürcüstan münasibətlərində Rusiya amili (etnosiyasi proseslər kontekstində) / Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi nəzəri jurnal, Bakı, 2021. - https://geostrategiya.az/news.php?id=126 [13.01.2021].

2. Volkan Bozkır. Türkiyenin Yeni Avrupa Birliği Stratejisi/İktisadi Kalkınma Vakfı Dergisi, İstanbul 2014, 104 s. - https://www.ikv.org.tr/ikv_dergi/ikv_eylul_2014/HTML/files/assets/common/downloads/publication.pdf [22.04.2025].
3. Emre Erşen. Türkiye'nin Rusya ve Güney Kafkasya Politikası 2014/Türk Dış Politikası Yıllığı 2014, SETA Yayınları 50, Ankara, 2015, s.355-382
4. Ali Topuz. "Türkiye'nin Avrasya Ekonomik Birliği ile işbirliği için yol haritası hazırlanıyor" // Sputniknews, 25.12.2014.
5. Rengin Arslan. Türkiye-Rusya uçak krizi: 10 günde neler yaşandı? - https://www.bbc.com/turkce/haberler/2015/12/151204_rusya_krizin_10_gunu? [04.12.2015].
6. Ahmet Davutoğlu. "Turkey's Foreign Policy Vision: An Assessment of 2007,"/Insight Turkey, Volume 10, Number 1, 2008, s. 77-96.
7. Raide Oral. "Türkiye, Gürcistan'ın stratejik ortağıdır". - https://www.iha.com.tr/haber-turkiye-gurcistanin-stratejik-ortagidir-246469 10.10.2012 [22.04.2025].
8. Ermenilerden Rusya'ya tepki. - https://www.sabah.com.tr/dunya/ermenilerden-rusyaya-tepki-3329885 [30.11.2015].
9. Özgür Tüfekçi. Türkiye'nin Rusya ve Güney Kafkasya Politikası 2015/Türk Dış Politikası Yıllığı 2015, SETA Yayınları 64, İstanbul, 2016, s.317-340
10. Bakan Soylu: 15 Temmuz'un arkasında bal gibi Amerika var, olmasa adamı orada saklamaz. - https://www.cumhuriyet.com.tr/siyaset/bakan-soylu-15-temmuzun-arkasinda-bal-gibi-amerika-var-olmasa-adami-orada-saklamaz-1981728 16.09.2022 [22.04.2025].
11. Özgür Tüfekçi. Türkiye'nin Rusya ve Kafkasya Politikası 2016/Türk Dış Politikası Yıllığı 2016, SETA Yayınları 83, İstanbul, 2017, s.357-396.

İnternet resursları

12. Türk generaldan Ermenistan'a doğru keskin nişancı eğitimi. - https://t24.com.tr/haber/turk-generaldan-ermenistana-dogru-keskin-nisanci-egitimi,276469#google_vignette [08.11.2014].
13. Ermenistan'ın da Güney Kafkasya Halkasına Katılmasını İstiyoruz. - https://www.haberler.com/guncel/bakan-cavusoglu-ermenistan-in-da-guney-kafkasya-6763399-haberi/?ysclid=m8jyxs63cc102724297 [10.12.2014].

ГУСЕЙН ГУСЕЙНЛИ
Доцент кафедры Новой и новейшей истории стран Европы и Америки Бакинского государственного университета, доктор философии по истории

РОССИЙСКИЙ ФАКТОР В ПОЛИТИКЕ ТУРЦИИ НА ЮЖНОМ КАВКАЗЕ (2013-2016)

Статья анализирует политику Турции в Южном Кавказе в 2013–2016 годах, с акцентом на отношения с Россией, особенно в политическом и дипломатическом контексте. Рассматриваются события 2014 года, включая столкновения в Нагорном Карабахе, позиция Грузии в отношениях между Россией и Турцией, а также подход Турции к "новой географии" в Южном Кавказе, напряженность в отношениях с Россией, вступление Армении в Евразийский экономический союз и его влияние на политику Турции. В статье также освещаются отношения Турции и Грузии, особенно в контексте региональной безопасности и экономического сотрудничества. Все эти факторы привели к формированию новой политической линии Турции в Южном Кавказе и балансированию ее отношений с Россией.

Ключевые слова: Турция, Россия, Южный Кавказ, Азербайджан, Грузия, Армения.

HUSEYN HUSEYNLI
Associate Professor of Baku State University,
Department of New and Modern History of European and American Countries,
Doctor of Philosophy in History

THE RUSSIAN FACTOR IN TURKEY'S SOUTH CAUCASUS POLICY (2013-2016)

The article analyzes Turkey's South Caucasus policy between 2013 and 2016, focusing on relations with Russia, particularly political and diplomatic processes. It examines the events of 2014, including the clashes in Nagorno-Karabakh, Georgia's position in Russian-Turkish relations, as well as Turkey's "new geography" approach in the South Caucasus, tensions in relations with Russia, and Armenia's accession to the Eurasian Economic Union and its impact on Turkey's policy. The article also highlights the relations between Turkey and Georgia, especially in terms of regional security and economic cooperation. All these factors lead to the formation of a new political line for Turkey in the South Caucasus and the balancing of its relations with Russia.

Keywords: Turkey, Russia, South Caucasus, Azerbaijan, Georgia, Armenia.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 22 aprel 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 may 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. İbrahim Zeynalov.